**Azərbaycan Respublikası**
**Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası**

## QƏRAR № 5

Bakı şəhəri, "07" 04 2017-ci il

Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası Rauf Əli oğlu Pənahovun sədrliyi ilə Azərbaycan Respublikası Prezidenti yanında Apellyasiya Şurasının sədri cənab Eldar Nuriyevin Bakı Şəhər İcra Hakimiyyətinə ünvanlanmış 10.03.2017-ci il tarixli, 20/1-kol-618/2-030 nömrəli məktubu ilə göndərilmiş metronun "Koroğlu" (keçmiş "Meşədi Əzizbəyov") stansiyasının ətrafında sahibkarlıq fəaliyyəti göstərmiş sahibkarlar Bakı şəhəri, Xətai rayonu, Həsən Salmani küçəsi, 1160-cı məhəllə, ev 17, mənzil 139 ünvanda yaşayan Cəfərov Vahid Qulam oğlu və digərlərinin Azərbaycan Respublikası Prezidenti yanında Apellyasiya Şurasına ünvanlanmış kollektiv müraciətinə baxaraq

**M Ü Ə Y Y Ə N   E T D İ**

Araşdırma zamanı müəyyən edilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 01.02.2006-cı il tarixli, 1255 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci illər üçün əlavə tədbirlər planı"nın 26 və 27-ci bəndlərinin icrasını təmin etmək və həmin ərazidə yeni yol infrastrukturunun yaradılması məqsədilə, ərazidə fəaliyyət göstərmiş qeyri-yaşayış sahələrinin köçürülməsi işləri həyata keçirilmiş, eyni zamanda ərazidə fəaliyyət göstərmiş qeyri-yaşayış sahələrinin digər ərazilərdə fəaliyyətinin bərpa edilməsi üçün Bakı Şəhər İcra Hakimiyyəti Başçısının 08.05.2015-ci il tarixli, 196 nömrəli Sərəncamı ilə Qaradağ rayonu, Lökbatan-Xocəsən yolunun şimal hissəsində 1,20 hektar torpaq sahəsi ayrılmış və qeyd olunan torpaq sahəsinə dair Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsində inşaat pasportu tərtib edilmişdir. Həmçinin, ərazidə sahibkarlıq fəaliyyəti göstərmiş bir sıra sahibkarlar Rəhimov Arzu Qəmbər oğlu, Məmmədov İkram Cabbar oğlu, Bağırov Azad Həsən oğlu və Vəliyev Mübariz İbad oğlu ("Merkuriy-R" firması) onlara ayrılmış torpaq sahələrini yerində qəbul edərək hazırda sahibkarlıq fəaliyyətlərini davam etdirirlər. Lakin müraciət müəllifləri Cəfərov Vahid Qulam oğlu və digərləri Qaradağ rayonu ərazisində ayrılmış torpaq sahəsi ilə razılaşmayaraq onlara məxsus olmuş qeyri-yaşayış sahələrinin əvvəlki ölçülərinin saxlanılması şərti ilə uzun illər çalışdıqları Nizami rayonu ərazisində boş torpaq sahəsinin ayrılmasını tələb etmişlər.

Araşdırmalar nəticəsində hazırda sahibkarların istəyinə uyğun Nizami rayonu ərazisində boş torpaq sahəsinin olmadığı məlum olmuşdur. Qeyd olunan hallar vətəndaşların iddiası əsasında çıxarılmış məhkəmə qərarlarının icrasını da mümkün etmir, vətəndaşlara alternativ torpaq sahələri təklif edilsə də onlar bu təkliflərdən imtina etmişlər.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 762 nömrəli, 03.02.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 7.3.3-cü bəndini rəhbər tutaraq,

**Q Ə R A R A   A L I N D I:**

1. Metronun "Koroğlu" (keçmiş "Meşədi Əzizbəyov") stansiyasının ətrafında sahibkarlıq fəaliyyəti göstərmiş sahibkarlar, Bakı şəhəri, Xətai rayonu, Həsən Salmani küçəsi, 1160-cı məhəllə, ev 17, mənzil 139 ünvanda yaşayan vətəndaş Cəfərov Vahid Qulam oğluna və digərlərinin kollektiv müraciəti təmin edilməsin.

2. Metronun "Koroğlu" (keçmiş "Meşədi Əzizbəyov") stansiyasının ətrafında sahibkarlıq fəaliyyəti göstərmiş sahibkarlar, Bakı şəhəri, Xətai rayonu, Həsən Salmani küçəsi, 1160-cı məhəllə, ev 17, mənzil 139 ünvanda yaşayan Cəfərov Vahid Qulam oğlu və digərlərinə Bakı Şəhər İcra Hakimiyyəti Başçısının 08.05.2015-ci il tarixli, 196 saylı Sərəncamı ilə Qaradağ rayonu, Lökbatan-Xocəsən yolunun şimal hissəsində ayrılmış 1,20 hektar torpaq sahəsində sahibkarlıq fəaliyyətini davam etdirmələri bir daha təklif edilsin.

3. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının Katibliyi bu Qərarın surətini Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına və Bakı şəhəri, Xətai rayonu, Həsən Salmani küçəsi, 1160-cı məhəllə, ev 17, mənzil 139 ünvanda yaşayan vətəndaş Cəfərov Vahid Qulam oğluna göndərilməsini təmin etsin.

**Bakı Şəhər İcra Hakimiyyətinin**
**Apellyasiya Şurasının sədri** — **Rauf Pənahov**